*Redaksiyanın arxivindən*

# 1916-cı il Britaniya qaynağı erməni problemi haqqında

***(əvvəli 7 avqust tarixli sayımızda)***

O, Şərqi Anadoludakı Muş şəhərinin ermənilərini təsvir edərək deyir: “Hazırda Muş düzündə yaşayan ermənilər çətin idarə olunan adamlardır. Onlar çox xəsisdirlər və ən yüngül vergiləri belə ödəməkdən imtina edirlər; onlar bir-birinə münasibətdə çox qəddardırlar və öz həmkəndlilərindən (ermənilərdən) qisas almaq üçün tez-tez “üsyançılara” qoşulurlar: adam bundan böyük iblisliyi ağlına gətirə bilməz — onlar günahsız adamları (erməniləri) cəzaya cəlb etmək üçün müsəlmanları öldürürlər...” (səh. 30). Əlbəttə ki, belə təsvirlər bütün ermənilərə aid deyildir. Onlardan bir çoxu istər Türkiyədə və istərsə də Rusiyada yüksək hərbi, dövlət və maliyyə mənsəblərinə sahib olmuşlar. Ancaq onların bəzisi Türkiyə tərəfindən Balkan müharibəsində vuruşduğu bir vaxtda başqa ermənilər “Ədirnədə müsəlmanlardan olan tacir həmkarlarının mağazalarını dağıdırdılar” (səh. 31).

Yazıçı (33-35 səhifədə) ser Mark Sayksın “Dar-ül-İslam” (səh. 72-78) əsərinə müraciət edir. Orada qeyd olunur ki, 1895-ci ildə erməni qiyamçılarının (inqilabçılarının) bir qrupu belə bir fikrə gəldilər ki, “Yarım müvəffəqiyyətli inqilab alovunu yandırmaq” məqsədilə Zeytuna altı nəfər nümayəndə göndərmək münasib olardı. “Bu fırıldaqlar az da olsa bir səmərə verə bildi”. Bu cür hərəkətlərin axırı nə ola bilər. Avropanın diqqəti artıq çoxdan onların məsələsinə və pul toplamaq üçün ayırdıqları fonda cəlb olunmuşdu. Ermənilər heç vəchlə üsyana hazır deyildilər və buna görə də “altı inqilabçının” təsiri zəif idi. Doğrudur, bəzi adamlar var idi ki, “ehtirasla, axmaq fikirlərlə, bəlkə də xəyanətlə danışırdılar, lakin hər halda onlar silahlı üsyana hazır deyildilər”. Ancaq “onların əlinə öz həmmillətlərindən hökumətin əl-qolunu qəflətən bağlamaqda istifadə etmək üçün əlverişli bir fürsət düşmüşdü”.

Zeytun və Firnusdan olan bir çox ermənI adətən kənd təsərrüfatı işçisi və sənətkar kimi pul qazanmaq üçün Adanaya gedirdi. Osmanlı hökuməti bütün kənar adamların öz şəhər və əyalətlərinə qayıtmağını tələb edən əmr vermişdi ki, bu da erməniləri bərk qəzəbləndirdi. “Onlar öz yerlərinə qayıdarkən yolüstü bəzi türkmanları çapıb-talamaqda tamam axmaq bir iş görmüş oldular”. Türkmanlar da öz növbəsində Mərəş hakiminə şikayət etdilər. Hakim işi təhqiq etmək üçün bir türk minbaşı (mayor), bir erməni vətəndaşı və onları qorumaq üçün beş nəfər polis zabitindən ibarət komissiya təşkil edir. Ser Mark Sayks deyir: “Agentlər bu işdə onlar üçün çətinlik yaradacaq bir dəyişiklik hiss etdilər”. Mayor və zabitlərdən üçü öldürüldü. Xristian nümayəndəsini isə ermənilər özləri ilə apardılar. Səhv etdiklərini sonradan başa düşən ermənilərin qiyamçılara qoşulmaqdan başqa çarələri qalmadı”.

Mərəş hakimi qarnizonu gücləndirmək üçün bir dəstə piyada əsgər göndərdi. Üsyançıların başçıları qoşun dəstəsinin qabağını kəsdi və Zeytun qarnizonuna hücum etdi. Erməni qüvvələri Kirtul əyalətinə tərəf hərəkət etməyə başladı və “orada bir neçə türk kəndini talan etdilər və nəhayət Andrimi tutdular. Orada onlar rəsmi hökumət idarəsini yandırdılar”.

Mark Sayks davam edərək deyir: “Zeytuna qayıtdıqları zaman onlar (ermənilər) Şükri hisarda çox biabırçı qətllər törətdilər”. O davam edir: “Bundan sonra qarmaqarışıqlıq başladı... Narahat olan türk hökuməti həmin anda iki diviziya topladı. Onlardan biri Ferik paşanın komandanlığı altında Mərəşdə, o biri Əli paşanın komandanlığı altında Adanada...

Əli paşanın təslim olmaq haqqında çağırışı erməniləri qorxuya saldı. Onlar heç bir şərti qəbul etmək imkanında deyildilər və yeganə çıxış yolunu ölümlərini gözlərinin qabağına gətirərək öz kəndlərində qalıb axıra kimi müqavimət göstərməkdə, ya da qiyamçıların yerləşdikləri Zeytuna qaçmaqda görürdülər. Əhali arasında yerlərini tərk etmək üçün yalan şayiələr yayırdılar ki, guya onlara kömək etmək üçün İskəndərunda ingilis desantı salınmışdır...”

“Onlardan (altı nəfərdən) biri kəndlilərə ümidverici çıxışlarla dolu bir məktub göndərir. Lakin, bu fırıldaqçı və onun həmkarları görəndə ki, onlara inam azalıb, əhalini hökumətdən hər hansı bir ümid və rəhm ummaq fikrindən daşındırmaq üçün başqa bir tədbirə əl atdılar. Onlar Əli paşanın qarşısından qaçan qaçqınları bir yerə toplayıb mühasirəyə alınmış qarnizonun üstünə yeridilər və onun əsgərlərini xüsusi bir qəddarlıq və vəhşiliklə qırdılar... Bu alçaqlığı və rəzilliyi heç vəchlə bütün Zeytun əhalisinə aid etmək olmaz.

Bu işi “inqilabçıların” alçaq hiyləsi və qəddarlığına, ağılsız fanatizmə, hiddətlənmiş və ümidini itirmiş kəndlilərə aid etmək olar. Biz həmçinin qeyd etməliyik ki, bu dəhşətli qırğından sonra Zeytun əhalisinin bir çoxu qırğın yerində sağ qalmış 70-ə qədər əsgəri meyitlərin arasından tapıb çıxarmış və xilas etmişdilər. Müharibədən sonra onlardan 57-si (hökumətə) təhvil verilmişdir.

Xristianların müsəlmanlara və müsəlmanların xristianlara olan belə nəcib münasibətlərini görəndə adam bir az rahatlıq hiss edir.

“Bu ağılsız qırğından sonra “inqilabçılar” öz hərəkətləri və təsirli siyasətləri ilə fəxr etməyə başladılar. Zeytun rüsvayçılıq və namussuzluq nümunəsinə çevrilmişdi. Şəhər mühasirə qarşısında son həddə müqavimət göstərməyə hazırlaşırdı. Lakin, əsl türk alicənablığının nümunəsi olan Ədhəm paşanın üç həftədən sonra hadisə yerinə gəlməsi Zeytun hadisələrini bir növ unutdurdu. Avropa konsullarının köməyi ilə şəhərlə şərəflə sülh sazişi bağlandı. Çox təəssüf ki, onun bəndlərində biri bu qanlı və bədbəxt hadisələrin səbəbkarlarına heç bir maneəsiz Avropaya qayıtmaq icazəsi verdi...”

“Sonradan aydın olacaq ki, tərəflər “inqilabçıların” qaçmasına icazə verməkdə böyük bir səhv etmişlər.

Türklərin nə dərəcədə səhv etdiklərinə kim hökm verə bilər? Bir şeyi nəzərə almaq lazımdır ki, onlar ölkənin mərkəzində inqilabın alovlanmasına yol verə bilməzdilər. Çünki həmin vaxt türklər hər tərəfdən hazır dayanmış düşmənlərin əhatəsində idilər...”

Mark Sayks deyir ki, ermənilərin “qeyri-təbii adətləri var. Başqa qüvvətli dövlətləri onlara kömək etməyə qane etmək üçün özlərini təhlükəyə məruz qoyurlar”, məndə olan əsaslı dəlillər belə qənaətə gəlməyə imkan verir ki, bu bədbəxtlər türkləri cinayətkar kimi qələmə vermək və Amerikanın (Türkiyəyə) müharibə elan etməsi ümidilə amerikan missionerlərini öldürmək planı qurmuşdular”.

1896-cı il Malatya hadisələrinə işarə edən yazıçı göstərir ki, bu, ümumi qaydadan “istisna” idi. Çünki bu dəfə ilk zərbəni ermənilərin ümumi qiyamından, arvad-uşaqlarının öldürülməsindən qorxan müsəlmanlar vuruşmuşdular. Adam ilk dəfə Malatya hadisələri haqqında söhbəti eşidərkən belə hesab edir ki, türkləri bağışlamaq olmaz. “Lakin... Ser Mark Sayks qeyd edir ki, “dəqiqləşdirəndə görürsən ki, yenə də həmin axmaq və ağılsız söhbətdir... ermənilərin adətən fəxrlə dolu hədələri... və hay-küyləri ki, türklər artıq məhv olmaq ərəfəsindədirlər... Əsassız iftira... və müsəlmanların təbii həyəcanı...” O əlavə edir:

“Ermənilər vuruşmaq niyyətində idilər; qiyam etməyə hazırlaşırdılar; hər yerdən silah toplayırdılar; lakin həmişəki kimi ilk hücumdan sonra onları bədbinlik və qorxu bürüdü... Ancaq az bir sayda olan dəstə şücaətlə dayanmışdı. Onlar erməni kilsəsini cahil kütlələrin hücumundan müdafiə edənlər idi. Lakin biləndə ki, bu əclaf köpəklər fransisk rahibləri monastırdan qaçarkən 200 yardlıq məsafədən onları atəşə tutublar ki, avropalılardan birinin öldürülməsi güclü dövlətləri bu işə qarışmağa vadar etsin, onlar haqqında olan yüksək fikirlərim tamamilə yox olub getdi”.

Dikson-Conson sübut edir ki, ermənI tərəfdarlarının “qırğının heç bir provokasiyasız, guya türk hökumətinin razılığı ilə törədildiyi” haqqında olan inandırmaları yalandır. O, ser Edvin Pirsin kitabından aşağıdakı mətni verir: “Ermənilərin dostu kimi deyirəm ki, üsyan tamamilə zərərli görünür. Bəzi ekstremistlər elan ediblər ki, onlar xarici müdaxiləyə gətirib çıxaran böyük bir qırğın alovunu yandıracaqlar. Onlar eyni zamanda yaxşı bilirlər ki, yüzlərlə günahsız adam belə cəhdlərdən nə cür bəlalar görmüşlər”.

Dikson-Conson davam edir: 1876-cı ildə Asiyada (Kiçik Asiyada) ümumi üsyan qaldırmaq cəhdi ilə “inqilabçılar” “Səfirləri müdaxiləyə sövq etmək ümidilə İstanbulda bir-birinin ardınca daha təhlükəli planlar qurdular. “Onlar tapança və qumbaralarla silahlanaraq Osmanlı bankına hücum etdilər və on iki mühafizəçini öldürdülər, avropalı işçiləri girov götürdülər və binanı partlatmaqla hədələdilər. Xarici səfirlər Portadan sui-qəsdçilərin salamat qalmasına zəmanət ala bildilər. Eyni zamanda böyük Bira küçəsinə də qumbaralar atıldı və İstanbulun bu baş küçəsindəki evlərin damında özlərinə mövqe tutmuş sui-qəsdçilər küçədən keçən adamlara da atəş açdılar” (səh. 37). Dikson-Conson davam edir:

Heç bir şübhə yeri qalmır ki, “inqilabçılar” erməni əhalisinin ümumi üsyanı ilə nəticələnəcək bir sıra hücum əməliyyatları həyata keçirmək niyyətində idilər...

Şəhərə belə bir xəbər yayıldı ki, ermənilər üsyan etmiş və başqa şəhər əhalisini qırırlar. Çoxlu adam dəyənəklə silahlandı və onlara Bira və Qalatada yaşayan başqa millətlərdən olan dəstələr də qoşuldu. Onların çoxu öz mənfur ticarət rəqiblərindən intiqam almaq istəyən yunanlar idi və öz intiqamlarını erməni əhalisinin üzərinə tökdülər. Polis və ordunun qətllərdə heç bir rolu olmamışdır. Ölənlərin sayı təxminən 1000 nəfərə çatmışdı. Onların arasında sui-qəsdçilərin atdığı bombalar və güllələrdən ölənlər də var idi.

“Nyu York herald”ın sahibi Qordon Benet yazırdı: “Asanlıqla başa düşmək olur ki, erməni problemi əslində siyasi problemdir (səh.10...) və çaxnaşmaların əsasını xristianlara qarşı yönəldilmiş dini fanatizm təşkil edir”. O davam edir: “Türklərdəki müxbirlərin öz qəzetlərinə göndərdikləri materiallar əksər hallarda anti-türk meyilli və ədalətsiz olurdu”. Jurnalist Veysman deyir ki, “bir sıra Avropa paytaxtlarında olan erməni komitələrinin hiddəti bu istiqamətdə davam edirdi. Nə bir ingilis, nə də bir Amerika qəzeti tapmaq olar ki, türklər və onların hökuməti haqqında xoş söz desin.

...Kanon Makol və Hersoq Vestminsterin İngiltərədə bəzi ağılsız fanatiklərin köməyi ilə qurduğu fitnənin türkləri ekstremist və xristianların qanına susayan kimi qələmə verməkdə böyük köməyi oldu”.

Bununla yanaşı Dikson-Conson qeyd edir ki, orada (Türkiyədə) ermənilərdən başqa sıxıntılara məruz qalan bir nəfər də xristian tapmaq olmaz. Yəhudilərə gəlincə, S.Veysman xəbər verir ki, erməni bilib bir nəfər yəhudi tacirinə hücum etmişdilər. Ancaq camaat biləndə ki, o yəhudidir, ona dəyməmiş və geri qaytarıb yerə dağılmış mallarını yığışdırmağı xahiş etmişdilər. Dikson-Conson soruşur: “Yer üzündə başqa adamlar tapmaq olarmı ki, belə bir şəraitdə bu cür hərəkət etsinlər?” (səh. 39).

***(davamı növbəti saylarımızda)***

**Doktor Türkqaya Ataof,**
**Ankara Universitetinin Siyasi elmlər fakültəsi Beynəlxalq əlaqələr şöbəsinin professoru.**

**1996-cı il.**